# Heydər Əliyevin siyasi kursunun alternativi yoxdur

***Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin siyasi-iqtisadi əsaslarını yaratmış, xalqın müstəqil və güclü dövlətə sahib olması arzusunu təmin edərək milyonların ürəyində özünə əbədi heykəl ucaltmışdır.***

Heydər Əliyevin titanik əməyi, möhkəm siyasi iradəsi, qətiyyəti və dövlətçilik təcrübəsi nəticəsində müasir Azərbaycan Respublikası dünya dövlətləri sırasında öz layiqli yerini tutmuşdur. Azərbaycanın hərtərəfli inkişafı gələcək tərəqqisi üçün möhkəm əsasların yaradılması zəngin təcrübəyə, parlaq zəkaya, ali mənəvi keyfiyyətə, tükənməz enerjiyə malik Heydər Əliyevin sosial – iqtisadi strategiyasının nəticəsində mümkün olmuşdur.

Azərbaycan Respublikasının yeni Konstitusiyasının qəbul edilməsi, vətəndaş cəmiyyətinin bərqərar edilməsi, cəmiyyətin və dövlətin bütün sferalarında dövlət sturukturlarının təkmilləşdirilməsi və yenidən qurulması, təcrübəli kadrların seçilib yerləşdirilməsi, ordu quruculuğu, təhsil, səhiyyə, elm, mədəniyyət və digər sahələrdə milli iqtisadiyatın formalaşmasında və xarici siyasətdə ulu öndər Heydər Əliyevin xidmətləri misilsizdir. Bu siyasi xətt –fəaliyyət pirinsipi 1969-cu ildən Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsi ilə başlanan şərəfli missiyanın əsas qayəsi idi. 1969-1983-cü illərdə paytaxt Bakı və regionlar sürətli şəkildə dəyişmiş, yeni saneyə və kənd təsərrüfatı müəssələri, sosial obyektlər tikilib istifadəyə verilmişdir.

Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışı ilə bütün sahələrdə mühüm qərarlar qəbul edilərək uğurlar qazanılmışdır. Heydər Əliyevin balanslaşdırılmış xarici siyasəti nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsində möhkəmlənmiş, ölkəmiz Cənubi Qafqazın lokomotivinə, regionda yerləşən transmilli lahiyələrin müəllifinə və fəal iştirakçısına çevrilmişdir.

Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti və gərgin əməyi nəticəsində əldə olunmuş nailiyyətlər sonrakı illərdə də ölkənin davamlı inkişafı üçün möhkəm zəmin yaratmışdır. Heydər Əliyev ideyalarının layiqli davamçısı Prezident İlham Əliyevin 19 ildə iqtisadi və demokratik inkişaf, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində qazandığı uğurlar məhz Heydər Əliyev tərəfindən formalaşan möhkəm təmələ əsaslanır.

Prezident İlham Əliyevin apardığı uğurlu siyasətin nəticəsində Azərbaycan ilk dəfə BMT Təhlükəsizlik Şurasının qeyri– daimi üzvü, Qoşulmama Hərakatının sədri seçilmiş, bir sıra böyük dövlətlərlə ikitərəfli və çoxtərəfli müqavilələrə imza atmışdır.

Birinci vitse – prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə bir çox sosial layihələr həyata keçirilmiş, xalqın rifahının daha da yaxşılaşdırılması istiqamətində müxtəlif tədbirlər görülmüşdür. Eyni zamanda, Heydər Əliyev Fondunun iştirakı və davamlı fəaliyyəti nəinki Azərbaycanda, həmçinin xarici ölkələrdə Heydər Əliyev irsini yaşadaraq görülən işlərlə bir çox uğurlu layihələr həyata keçirilmişdir. Heydər Əliyev Fondunun dəstəyi ilə xaricdə yaşayan azərbaycanlıların birgə fəaliyyəti təmin edilmiş və nəzərəçarpacaq uğurlar qazanılmışdır.

Heydər Əliyev ideyasının reallaşan parlaq nümunəsi Azərbaycan tarixinə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsidir. Ordumuzun şanlı qələbəsi tariximizə əbədi həkk olunmuşdur. Prezident İlham Əliyevin rəhbərliyi və uzaqgörən, qətiyyətli siyasəti nəticəsində uzun illərdən bəri qələbə müjdəsini gözləyən xalq gələcəyə ümidlə baxaraq, 8 noyabrı Zəfər Günü kimi qeyd edir. Bu isə Heydər Əliyev siyasətinin Azərbaycanda alternativi olmadığının bariz nümunəsidir.

***Təhmasib RÜSTƏMOV,***
***YAP Qubadlı rayon***
***təşkilatının sədri***

Xalq qəzeti .- 2022.- 11 may.- S.12.